**LEYLA MƏMMƏDOVA**
**Bakı Avrasiya universiteti**
**Həsən Əliyev 135 A**
**leyla.filoloq94@gmail.com**

# LEKSİK ANTONİMLƏRİN SEMANTİK-TİPOLOJİ TƏSNİFİ

**Xülasə**

Bu məqalədə ingilis dilində leksik antonimlərin semantik-tipoloji təsnifindən bəhs edilib. İlkin olaraq antonimlərin nə olduğu və dildə hansı əhəmiyyətə malik olduğundan bəhs edilir. Antonim anlayışını dilçiliyə ilk dəfə C.Smith daxil etmiş və bu sözü sinonimliyə əks olaraq işlətmişdi. Dilçilikdə mövcud olan bir sıra problemlər kimi antonimlik problemi də müxtəlif dilçilər üçün maraq mənbəyi olmuş və əksər dilçilər antonimlik, antonimlər, antonimin həm semnatik-tipoloji, həm də struktur növləri haqqında fikir bildirmiş, yeri gəldikdə öz bölgülərini vermişdir. Məqalədə antonomiya hadisəsi fərqli dilçilərin baxışından izah edildikdən sonra antonimlərin semantik-tipoloji təsnifi verilir.C.Lyons və J.Palmerin antonimlər,antonomiya,antonimlərin növləri və xüsusiyyətləri haqqında fikirləri ətraflı şərh edilmiş və bu bölgü əsas hesab edilərək izah edilmiş və ingilis dilinə aid nümunələrlə əsaslandırılmışdır. Antonimlərin semantik məna növlərindən bəhs edərkən üç növünün varlığı qeyd edilir. Antonimlərin ilk növü kimi dərəcəli antonimlərdən bəhs edilir.

Antonimin bu növü sözlərin semantik mənasında dərəcə çalarlarının olmasından yaranır və həm müqayisə, həm də üstünlük dərəcələrində olur. Bu növü təşkil edən antonim cütlüklərdə hər zaman iki sözün mənası arasında üçüncü bir söz olur ki, bu da orta dərəcə hesab olunur. Antonimlərin semantik-tipoloji bölgüsündə ikinci yeri tamalayıcı antonimlər tutur və bu antonimlərində digər növlərdən fərqli cəhətləri mövcuddur. Bu növdə olan antonim cütlər arasında mütləq fərqlilik meyarı var və bu hər hansısa bir semantik mənanı digərindən tamamilə ayırır. Məqalədə müxtəlif dilçilərin bu bölgüyə münasibəti də öz əksini tapmışdır.

**Açar sözlər:**antonim, semantika, dərəcəli, tamamlayıcı, əlaqəli

Hər bir dilin leksikasında sözlər fərqli xüsusiyyətlərə sahibdir və bu fərqliliklər dilin zənginliyinə, ünsiyyət zamanı nitqin gözəlliyinə, səlisliyinə, aydınlığına şərait yaradır. Dildə mövcud olan hər bir söz öz leksik mənasına, semantik və struktur xüsusiyyətlərinə görə fərqlənir. Dildən istifadə zamanı həmin dilin sinonimlərindən və antonimlərindən geniş istifadə olunur. Dilin leksik-semantik sistemində antonim sözlər mühüm əhəmiyyət kəsb edir, cünki antonimlərfikrin dəqiq ifadə edilməsinə,nitqin üslubi cəhətdən ifadəliliyinə böyük təsir edir. Antonimlik anlayışı dilə C. Smith tərəfindən daxil edilmişdir. O, sinonim sözünün əksi olaraq antonimdən istifadə etmişdir. 1867-ci ildən bəri antonimlərin nə olduğu izah edilməyə çalışılmış, lakin bugün də dilçilikdə aktual bir mövzu olaraq qalmaqdadır.

Dilçilikdə antonimlərə bir çox tərif verilmişdir və onlardan biri də John Lyons tərəfindən verilmişdir. O, antonimləri mənaca əks olan sözlər, antonimliyi isə mənalar arasındakı əkslik kimi qeyd etmişdir. Azərbaycan dilçiliyində də bu mövzu geniş tədqiq edilmişdir və antonimlərə mütəlif yanaşmalar olmuş, fərqli təriflər verilmişdir. Böyük alim, dilçi, filologiya elmləri doktoru Həsrət Həsənovun verdiyi tərifdir.

O antonimlərə belə bir tərif verir:*mənaca bir-birinin əksi olan sözlər antonimlərdir. Antonimlər, əsasən, kəmiyyət və keyfiyyət, hərəkət, zaman və məkan məzmunlu məfhumların əks cəhətlərini ifadə edən müxtəlif fonetik tərkibli sözlərdir*(2 s5). Bu tərifdən də aydın olur ki, antonimlik deyərkən sözlərin mənalarının bir-birinə əks olması nəzərdə tutulur.

Semantika isə yunanca semantikos-anladan sözündən yaranıb və sözün, ifadənin, qramatik formanın mənası deməkdir. Bununla yanaşı semantika dilçiliyin sözlərin mənasını öyrənən bir

bölməsidir(1 s30). Semantikada hər bir söz ilə başqa sözlər arasında əlaqə var və bu məna əlaqəsidir.Sözlər arasındakı məna əlaqəsi özünü dörd formada göstərir: sinonimlik, antonimlik, çoxmənalılıq və tabelik. Sinonimlik mənanın oxşarlığı və ya eyniliyi olduğu halda, antonimlik mənanın əksliyidir. Sinonimlikdə olduğu kimi antonimlikdə də sözlər arasındakı əlaqə əsasdır və bu əlaqə sözlərin mənasındadır.

Dilçilikdə sözlər arasında semantik əlaqlər ən vacib sahələrdən biridir və burada sinonimlik, antonimlik və omonimlik xüsusi əhəmiyyət kəsb edir. Bunların arasında antonimlik,mənanın əksliyi ən vacib semantik əlaqlərdəndir. Antonim cütlüklərə dilin hər sahəsində rast gəlirik, xüsusilə mətn daxilində, atalar sözləri və frazeoloji birləşmələrin tərkibində bu antonim cütlüklər ritorik effekt yaratmaq üçün geniş istifadə olunur. Antonimlər dilin öyrədilməsində və öyrənilməsində də vacib əhəmiyyət daşıyır, belə ki, çox vaxt sözün leksik mənasını izah etmək üçün onun antonimindən istifadə olunur.

**Antonimlərin semantik təsnifi**. Antonimlik eyni nitq hisəsinə aid olan söz və ya sözlər arasında mənanın əksliyidir. Məsələn: *yaxşı-pis,asta-sürətli,az-çox* və s. İngilis dilində antonimləri tədqiq edən alimlərdən biri Con Lyonsdir. O, antonimlərin bir-birinə mənaca əks olan leksik vahidlər arasındakı əlaqəni əhatə etdiyini və antonimlərin üç növünün olduğunu bildirir. Lyonsa görə mənanın əksliyi özünü 3 formada göztərir: *antonimlik, ziddlik, fərqlilik.*(11.s. 13) O , mənasına görə dərəcələnən və əks olan sözləri antonimlər hesab edir. Daha çox iddiyyət və fərqlilik dildə antonimlərin çoxluğuna səbəb olur. Buna görə də məhz bu iki xüsusiyyəti özündə daşıyan antonimlər daha geniş yayılmışdır. James C.Palmer də antonimlərin üç növünü qeyd edir: gradable(dərəcəli), complementary(tamamlayıcı) və relational(əlaqəli).(7. s.9) Bu növlərin hər biri fərqli formalarda təzahür edir və sözlərin semantik əksliyini üzə çıxarmağa əsaslanır.

**Gradable antonimlər(Dərəcəli antonimlər)** bir-biri ilə müqayisə edilə bilən, ölçülə bilən dil vahidləri arasında olur.İsti/soyuq, alçaq/hündür, böyük/balaca kimi antonim cütlüklər dərəcəli antonimlərə aiddir. Gördüyümüz kimi bu sözlər daha çox sifətlərə aiddir. Antonimlərin bu növü ən çox işlənilən növdür. Dərəcəli antonimlər bir-biri ilə əlaqəli sözlərin mənaları arasındakı səviyyə ilə, dərəcə ilə bağlıdır. Məsələn deyə bilərik ki, su isti deyil. Bu o demək deyil ki, su soyuqdur. *Soyuq* sifəti ilə *isti* sifətinin arasında daha bir dərəcə mövcuddur və bu *ılıq* və ya *mülayim* sifətidir. Dərəcəli antonimlərin üç xüsusiyyəti var. Birincisi antonimlik yaradan cütlər arasında adından da göründüyü kimi dərəcə fərqi var. Antonimlik yaradan cütlər arasında mənaca dərəcələr fərqlidir. İkincisi antonimlərin bu növündə antonim cütlər fərqli normalara, ölçülərə görə fərqlənir, üçüncüsü isə antonim hesab edilən sözlərdən biri əsas götürülür digəri ilə müqayisə edilir,qiymətləndirilir və ya ölçülür.

İlk xüsusiyyətinə görə antonim olan cütləri yaradan sözlərdən biri hər hansısa məfhumu, anlayışı danırsa, digəri onun mütləq varlığını ifadə etmir. Həmçinin bu cütlər arasında müqayisə və üstünlük dərəcələri də mümkündür. Məsələn "good" və "bad" sözlərinin hər ikisinin müqayisə və üstünlük dərəcələri var. "better"/"best" və "worse"/"worst" . Buna görə də "yaxşı" olmayan bir şeyin mütləq "pis" olduğunu və ya, pis olan hər hansısa bir şeyin yaxşı olduğunu demək olmaz. "Yaxşı" və "pis"in arasında orta dərəcə, yəni "babat" mövcuddur. Başqa nümunə kimi isə "böyük" və "kiçik" sözlərini demək olar. Bu iki sözün arasında mənaca "orta" sözü var. Bu nümunələrdən göründüyü kimi dərəcəli antonimlər sözlərin mənaları arasında dərəcə şərtlərinə görə fərqlənir.

İkinci xüsusiyyıətinə baxasaq deyə bilərik ki, antonim cütlər arasında mütləq meyar yoxdur. Yəni, əgər biz bir əşyaya "böyük", digərinə "kiçik" desək bu iki söz arasında mütləq deyil nisbi müqayisə olacaqdır. Bildiyimiz kimi istənilən *böyük siçan* istənilən *kiçik fildən* daha balaca olacaqdır. Buna görə də deyirik ki, dərəcəli antonimlər arasında dərəcələr müxtəlif normalara, ölçülərə əsasən aparılır.

Üçüncü xüsusiyyətinə görə isə antonim cütlüyü təskil edən sözlərdən biri əsas anlayışıdr və *vurğusuz*dur, digəri isə *vurğulu*dur.

**Complementary antonimlər(Tamamlayıcı antonimlər)** dərəcəli antonimlərdən tamamilə fərqlidir. Bu antonim cütlərdə orta dərəcə yoxdur, sözlər bir-birinin ziddidir. Məsələn: diri-ölü, bəli-xeyr, iti-küt. Bu antonimlərin də üç xüsusiyyəti var.İlkin olaraq tamamlayıcı antonimlər hər hansı bir semantik mənanı tamamilə ayırır, ikincisi bu tipdə meyar mütləqdir və üçüncüsü bu cütlər

arasında heç bir vurğulu söz yoxdur. Tamamlayıcı antonimlərdə məna dəqiqdir, birinci növ antonimlərin əksinə olaraq yaxınlıq və ya orta dərəcə yoxdur. Məsələn *kişi* və *qadın* sözləri arasında heç bir orta dərəcə yoxdur və bu sözlərin müqayisə və üstünlük dərəcəsi də mövcud deyil.İkincisi bu növ antonimlərdə meyarlar mütləqdir. Məsələn *ölmək* sözü bütün canlı orqanizmlər üçün eyni mənanı ifadə edir. Üçüncü xüsusiyyəti isə budur ki, bu antonim növündə əsas anlayış və ya vurğulu xüsusiyyət yoxdur.

**Relational antonimlər(Əlaqəli antonimlər)**. Bu antonimlər sözlər arasındakı mənanın bərpasına,bir-birini tamamlamasına əsaslanır. Bu cütlüklərdə sözlər arasındakı əlaqə çox güclüdür. Antonimin bu növündə qarşılıqlı əlaqə özünü göstərir. Məsələn:*almaq-satmaq, vermək-qəbul etmək, ər-arvad, şagird-müəllim*. Göründüyü kimi bu növ antonimlərdə bir tərəfin varlığı digər tərəfin də varlığını məcburi edir. Bu antonim cütlərdən biri deyildikdə qeyri-ixtiyari olaraq digəri də xatırlanır. Bu antonimin yeganə növüdür ki, burada bir tərəf digər tərəfin əksi deyil, müsbət və mənfi tərəf yoxdur.

Bu üç növ antonimlərdən başqa Palmer daha bir antonim növünü qeyd edir: çoxmənalı antonimlər. Adından da göründüyü kimi bu cür antonimlərdə bir sözün birdən çox antonimi olur. Məsələn xoşbəxt sözünü antonimi kimi məyus, üzgün, kədərli, təəssüflənmiş, küskün, qəhərli sözlərini götürmək olar. Bu sözlərdən hansının işlədilməsi isə məhz məzmundan, mətndən asılıdır.

Ümumiləşdirmə kimi deyə bilərik ki, Palmerə görə antonimliyin əsasını mənanın əksliyi yaradır və bu əkslik ya dərəcəli şəkildə olur, ya tamamilə ziddlik olur,ya tamamlayıcı formada olur, ya da çoxmənalı formada olur. Antonimlərin bu növləri hər biri digərindən kəkin şəkildə fərqlənir.

Beləliklə məqalənin ümumi mənasından anlamış olduq ki, antonimlər əksmənalı sözlərdir və antonimlik sözlərin semantik cəhətdən əksliyidir. Antonimlər sözlərin dəqiq mənasının izah edilməsində və sinonimlərinin seçilməsində olduqca əhəmiyyətlidir. Dilçilikdə antonimlərin öyrənilməsindəki əsas məsələlərdən biri antonimlərin sərhədlərinin müəyyən edilməsidir. Antonimlər üç fərqli növlərə bölündü:dərəcəli,tamamlayıcı və əks. Dərəcəli antonimlər sözlər arasındakı əlaqəni təsvir edir. Tamamlayıcı antonimlər sözlər arasında heç bir orta dərəcənin olmadığını göstərir. Əlqaəli antonimlər isə sözlər arasında əks əlaqəni göstərir.

## Ədəbiyyat


1. Adisutrisno, D. Wagiman. 2008. Semantics : an introduction to the basics concepts.
2. Azerbaycan dilinin antonimlər lüğəti, Bakı: Şərq-qərb. s5 ,144
3. Azərbaycan dilinin izahlı lüğəti. 4 cilddə, 4-cü cild, Bakı: Elm,1987, 544
4. Cruse, D.A. (1986). Lexical Semantics. Cambridge: Cambridge University Press.
5. Egan, R.F. (1968). Survey of the History of English Synonymy. Spingfield, MA: Merriam-Webster.
6. Gross, Derek, Fischer, Ute & Miller, George A. (1988). Antonymy and the Representation of Adjectival Meanings. Cognitive science laboratory report 13, Dept. of Psychology, Princeton University.
7. Hu, Zhuanglin. (2001). Linguistics. A Course Book. Beijing: Beijing University Press.
8. Jackson, H. (1988). Words and Their Meaning. London: Longman Inc.
9. Justeson, John S. & Katz, Slava M. (1991). Co-occurrences of Antonymous Adjectives and Their Contexts. Computational Linguistics, 17, 1-19.
10. Leech, Geoffrey. (1981). Semantics (2nd edition). Harmondsworth: Penguin Books.
11. Lyons, John. (1968). An Introduction to Theoretical Linguistics. Cambridge: Cambridge University Press.
12. Lyons, John. (1977). Semantics. Cambridge: Cambridge University Press.
13. Pyles, Thomas & Algeo, John. (1970). English: An Introduction to Language. New York: Harcourt, Brace and World.

14. Xu, Yiyun. (2009). The Analysis of English Antonymy in Features and Functions. Journal of Jiangxi Normal University, 42, 136-141

**Л.Маммадова**

## Семантико-типологическая классификация лексических антонимов

### Резюме

В данной статье рассматривается семантико-типологическая классификация лексических антонимов в английском языке. Во-первых, речь идет о том, что такое антонимы и что это означает на языке. Первое слово Энтони для лингвистики было включено в С. Smith и использовало его как синоним. Как и некоторые проблемы лингвистики, проблема антропологии также была источником интереса для различных лингвистов, и большинство лингвистов выразили свои взгляды как на семантико-типологические, так и на структурные типы антонимов, антонимов и антонимов.

В статье описывается семантико-типологическая классификация антонимов после интерпретации антропоморфизма разными лингвистами. Взгляды К. Лайонс и Дж. Палмера на антонимы, антонимы, типы и особенности антонимов были подробно объяснены и объяснены в этом разделе и подтверждены в образцах английского языка. Говоря о семантическом значении антонимов, существует три типа бытия. Антропоморфные антонимы, такие как первый тип антологии описаны.

Этот тип антонима получен из использования степеней в семантическом смысле слова, и является и сопоставимым и превосходящим. Антонимы, которые составляют этот тип, всегда являются третьим словом с точки зрения значения двух слов, которое считается умеренным. Второе место в семантико-типологическом делении муравьев занимают антонимы, и эти антонимы отличаются от других видов.

Этот тип антонима имеет абсолютную разницу между парами, и это отделяет любое семантическое значение от другого. В статье также рассматривается отношение разных лингвистов к этому разделу.

**Ключевые слова:** антоним, семантика, оценка, дополнение, родственные

**L.Mammadova**

## Semantic-typological classification of lexical antonyms

**Summary**

This article deals with the semantic-typological classification of lexical antonyms in English. First, it is about what the antonyms are and what it means in language. Anthony's first word for linguistics was included in C. Smith and used it as a synonym for it. Like some of the problems of linguistics, the problem of anthropology has also been a source of interest for various linguists, and most linguists have expressed their views on both semantic-typological and structural types of anthony, antonyms, and antonyms.

The article describes the antonyms' semantic-typological classification after the interpretation of anthropomorphism by different linguists. C.Lyons and J. Palmer's views on the antonyms, antonyms, types and features of the antonyms have been explained in detail and explained in this section and substantiated in English language specimens . When talking about the antonyms' semantic meaning, there are three types of being. Anthropomorphic antonyms such as the first type of anthology are described. This type of antonym is derived from the use of degrees in the semantic sense of words, and is both comparable and superior.

Antonyms, which constitute this type, are always the third word in terms of the meaning of the two words, which is considered to be moderate. The second place in the semantic-typological division of the ants is occupied by antonyms, and these antonyms differ from the other species. This type of antonym has absolute difference between couples, and this separates any semantic meaning from the other. The article also relates the attitude of different linguists to this division.

**Key words:**antonyms, semantics, grade, complement, related

Redaksiyaya daxil olma tarixi: 12.04.2019
Çapa qəbul olunma tarixi: 06.05.2019
**Filologiya üzrə fəlsəfə doktoru, dosent Sevda Rzayeva** tərəfindən çapa tövsiyə olunmuşdur.